

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ
AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

İxtisas üzrə kompetensiyalar xəritəsinin hazırlanmasına dair

TƏLİMAT

ATMU-KTŞ-T(İKXH)-01

BAKI – 2022

Dəyişikliklər haqqında məlumat			
Tarix	**Versiya**	**Tərtib etdi**	**Dəyişikliyin izahı**
13.09.2022	01	Faina Qaçabəyova Alikper Rizayev	İlkin versiya

"Təsdiq edirəm"
Azərbaycan Turizm və Menecment
Universitetinin rektoru
İ.İ.Mədətov
13 _____ 2022-ci il

İxtisas üzrə kompetensiyalar xəritəsinin hazırlanmasına dair

TƏLİMAT

I.Kompetensiya xəritəsi anlayışı

Təhsil proqramlarına daxil edilmiş ümumi və peşəkar səriştələr, eləcə də fənlər arasında əlaqəni əyani şəkildə təqdim etməyə imkan verən formadır.

II.Kompetensiya xəritəsinin mahiyyəti

Kompetensiya xəritəsi təhsil proqramının strukturunu, ayrı-ayrı fənlərin bir-biri ilə əlaqəsini göstərməyə, dövlət standartının tələblərini tam şəkildə nəzərə almağa, çatışmazlıqları, təkrarlamaları və digər uyğunsuzluqları aradan qaldırmağa, seçmə fənlərin məzmununu və kredit sayını müəyyənləşdirməyə imkan verir.

III.Kompetensiya xəritəsinin hazırlanması

Kompetensiya xəritəsi təhsil standartının tələbləri əsasında ixtisasın təhkim olunduğu kafedra müdiri tərəfindən tərtib edilir və kafedranın iclasında təsdiq edilir. Təsdiq edilməzdən əvvəl təhsil proqramında nəzərdə tutulmuş fənlərin təhkim olunduğu digər kafedralarla razılaşdırılır.

Xəritəyə daxil edilmiş hər bir fənnin tələbələrdə ümumi və ya peşə səriştələrinin formalaşmasına töhfə verməsi diqqətdə saxlanılmalıdır.

Xəritə Excel sənəddə hazırlanılır. Hər kafedra ona təhkim olunan ixtisaslar üzrə hərəsi ayrı səhifədə olmaqla bütün ixtisasları əhatə edən bir Excel üzərində işləyir.

Xəritə hazırlanarkən aşağıdakı ardıcıllığa riayət edilməsi zəruridir:

1. Kompetensiyalara ayrılmış sütuna müvafiq təhsil proqramında qeyd olunmuş sərişlər (kompetensiyalar) əlavə olunur.
2. Təhsil proqramında öz əksini tapan ümumi və ixtisas fənləri, ATMU-nun müəyyənləşdirdiyi fənlər (seçmə fənlər) cədvəldə təhsil proqramında qeyd olunmuş ardıcıllıqla yerləşdirilir.
3. Kompetensiyalarla ümumi və ixtisas fənləri arasında əlaqə müvafiq xanalarda "X" işarəsi ilə qeyd edilir. Bu zaman əlaqələndirilməyən kompetensiyalar ATMU-nun müəyyənləşdirdiyi fənlərlə (seçmə fənlərlə) əlaqələndirilir və bu müvafiq xanalarda "X" işarəsi ilə qeyd edilir.
4. Kompetensiyalarla ümumi və ixtisas fənləri arasında əlaqə göstərildikdən sonra, eyni kompetensiya ATMU-nun müəyyənləşdirdiyi fənlərlə (seçmə fənlər) əlaqələndirilə və bu müvafiq xanalarda "X" işarəsi ilə qeyd edilə bilər.

Qeyd: Bir kompetensiya bir neçə fənni və ya əksinə bir fənn birdən çox kompetensiyanı əhatə edə bilər.